Qarabağın qədim təhsil ocaqları

Qarabağ təkcə təbii gözəllikləri, sərvətləri, musiqisilə deyil, həm də qədim tarixə malik tədris ocaqları ilə də tanınmışdır. Həmin məktəblərdə təhsil alan çoxsaylı elm-mədəniyyət xadimləri var. XIX əsrdə fəaliyyət göstərmiş yeni dünyəvi tədris ocaqlarının sırasına 1830-cu ildə Şuşa şəhərində açılan qəza məktəbi də qoşulur. Bu məktəblər region əhalisinin maariflənməsi, gənclərin elmə, biliyə yiyələnmələri üçün əhəmiyyətli rol oynamışdır.

Həmin dövrdə bölgədə 240-a qədər şagirdin təhsil aldığı 9 məktəb və 1 mədrəsə fəaliyyət göstərmiş, kəndlərdə isə 18 mollaxana mövcud olmuşdur. Bir müddət sonra ruslaşdırma siyasəti nəticəsində bölgədə olan idarələrdə rus dili bilən kadrların çoxluq təşkil etməsi məqsədilə yeni dünyəvi məktəblər açmaq planlaşdırılır. 1835-ci il 12 may tarixində təsdiq edilən qərara əsasən Cənubi Qafqaz məktəblərinin II nizamnaməsində yeni məktəblərin açılması və mövcud qəza məktəblərinin təkmilləşdirilməsi nəzərdə tutulur. Məqsəd isə ondan ibarət idi ki, burada verilən ibtidai təhsil Tiflis gimnaziyasında davam etdirilsin. Sözsüz ki, təhsil prosesində rus dilinə böyük önəm verilirdi. Şagirdlərin say çoxluğuna görə Şuşa məktəbi ön cərgədə dayanırdı. Burada fransız dilinin tədrisi də vacib hesab edilirdi. Çünki Şuşa tacirləri Avropa ölkələri ilə əlaqələr qurmaqda maraqlı idilər.

1921-1922-ci illərdə Qarabağ məktəblərində ixtisaslı kadrlara ehtiyac olduğunu nəzərə alaraq Şuşada pedaqoji məktəb, Hadrutda pedaqoji texnikum açılır. Bir il sonra isə Xankəndidə sovetpartiya işçiləri hazırlayan xüsusi məktəb fəaliyyətə başlayır. Qarabağın qədim tədris müəssisələrindən biri də Ağdamda yerləşən 1 nömrəli məktəb olmuşdur. 1883-cü ildə Füzuli rayonunun Qarğabazar kəndindən olan Əsgər bəy Eyvazov tərəfindən Muradbəyli kəndində Əbdül Aslanovun evində açılan, 5 nəfər şagirdi olan məktəbdə dərslər rus dilində aparılmışdır. Məktəb bir müddət sonra Lenin küçəsində yerləşən evə, şagirdlərin sayı artdıqca, sinif otaqları azlıq təşkil etdiyi üçün isə 1904-cü ildə tədris-istehsalat kombinatının binasına köçürülür. Sonralar məktəbin direktoru Qori Seminariyasını bitirmiş Ağdamın Gülablı kəndindən olan Abbas İsmayılov olmuşdur. Bütün ömrünü insanların maariflənməsinə, elm-bilik sahibi olmasına sərf edən Abbas bəy qısa müddətdə rayonun Seyidli, Sarıhacılı, Ətyeməzli, Qiyaslı, Muradbəyli və digər kəndlərindən xeyli sayda uşaqları təhsilə cəlb etmişdir. 141 yaşlı Ağdam rayon 1 nömrəli məktəb Qarabağın ən qədim təhsil ocaqlarındandır. Mir Mehdi Xəzani 1859-cu ildə Xocavənd rayonunun Tuğ kəndində əmək fəaliyyətinə başlayıb. 1883-cü ildə onun rəhbərlik etdiyi tədris ocağı dünyəvi təhsil verən xalq məktəbinə çevrilib. Bundan başqa, Cəbrayılda 145-dən yuxarı, Qubadlıda 140-dan çox yaşı olan qədim məktəblər fəaliyyət göstərib.

İşğal illərində həmin tədris ocaqları da ermənilər tərəfindən dağıdılıb. Lakin qazandığımız şanlı Zəfər nəticəsində ərazilərimiz öz azadlığına qovuşub. Bölgədə aparılan bərpa-quruculuq işləri çərçivəsində bütün infrastrukturla yanaşı, məktəblər də yenidən qurulur. Adıçəkilən bütün bu təhsil ocaqları Qarabağın qədim tarixinin bir hissəsidir. Eyni zamanda bu məktəblər Azərbaycan elm, mədəniyyət və incəsənət aləminə böyük mütəfəkkirlər bəxş etmişdir.

Hadrut olduqca qədim tarixə malikdir. Qozluçay dərəsində Ərgünəş dağının yaxınlığında yerləşir. Bu yaşayış məskəni Azərbaycan elminə, mədəniyyətinə böyük töhfələr vermişdir.

Bəstəkar, publisist Üzeyir bəy Hacıbəylinin həyatında Hadrutdakı müəllimlik fəaliyyəti maraqlı bir mərhələ olub. Belə ki, 1904-cü il iyunun 1-də Qori Seminariyasını uğurla bitirən 19 yaşlı Üzeyir bəy ibtidai məktəb müəllimi ixtisasına yiyələnir. Elə həmin il Üzeyir bəy Gəncə quberniyasının məktəblər inspektorluğuna müraciət edir. O, Cəbrayıl qəzasının Hadrut kənd məktəbinin üçüncü paralel sinfinə müəllim təyin edilir. Beləliklə, Üzeyir bəy rus dili, hesab, tarixdən dərs deyir, həmçinin şagirdlərə nəğmə və musiqi öyrədir. Lakin 1905-ci ildə ermənilərlə türklər arasında başlanan münaqişə nəticəsində Üzeyir bəy Hadrutu tərk edir, avqustun axırlarında Bakıya gəlir. Beləliklə, Üzeyir bəyin Hadrutdakı qısa müəllimlik dövrü başa çatır.

Üzeyir Hacıbəyovun Hadrutda müəllim işlədiyi zaman yaşadığı ev beş dəfə erməni hücumuna məruz qalmışdı. Xeyirxah insanların köməyi ilə gecəyarısı kənddən çıxarılan Üzeyir bəy siyasi publisistikasında qatı millətçi erməni daşnaklarının Azərbaycana ərazi iddiaları ilə əlaqədar törətdikləri faciəli aksiyaları, vəhşiliyi ardıcıl olaraq ifşa edir, lənətləyirdi. Bu səbəbdən də ona qarşı ermənilər böyük təzyiq göstərir, ölümlə hədələyirdilər. Üzeyir Hacıbəyovun qısa müddət də olsa, müəllimlik etdiyi Hadrut məktəbinin binası da işğal dövründə ermənilər tərəfindən dağıdılaraq yararsız hala salınmışdır. Hazırda Hadrutda Prezident İlham Əliyevin tapşırığı ilə məktəb binaları yenidən tikilir, istifadəyə yararlı vəziyyətə gətirilir.

Ramidə YAQUBQIZI,
"Respublika".

Respublika .- 2024.- 29 noyabr (№ 263).- S.10.